**Ölüm cəzasına qarşı Avropa və Ümumdünya mübarizə günü, 10 oktyabr 2022: Avropa İttifaqı adından Ali Nümayəndə və Avropa Şurasının Baş Katibinin birgə bəyanatı**

Avropa və Ümumdünya Ölüm Cəzasına Qarşı Mübarizə Günü münasibətilə Avropa İttifaqı və Avropa Şurası hər zaman, hər yerdə və bütün şəraitdə ölüm hökmünə birmənalı surətdə qarşı olduqlarını qətiyyətlə təkrar bəyan edir.

Bu il Avropa İnsan Hüquqları Konvensiyasının (AİHM) ölüm hökmünün bütün hallarda ləğv edilməsinə dair 13 saylı Protokolunun iyirmi ili tamam olur. Biz ölüm cəzasını bütün hallarda ləğv etmiş Avropa Şurası Üzv Dövlətlərini (bütün Aİ Üzv Dövlətləri də daxil olmaqla) alqışlayırıq və Avropa Şurasının bu Protokola hələ də qoşulmamış qalan iki Üzv Dövlətini– Ermənistan və Azərbaycanı – ləngimədən bunu etməyə çağırırıq.

Dünya miqyasında hələ də ölüm cəzasını tətbiq edən dövlətlərin sayında davamlı azalma bu qəddar, qeyri-insani və səmərəsiz cəzadan imtina etmək istiqamətində qlobal tendensiyanı təsdiqləyir. 18 dövlətdən ibarət azlıq, BMT-nin Üzv Dövlətlərinin ümumi sayının 9%-i, 2021-ci ildə hələ də edamlar icra etmişdir. Biz həmin dövlətləri ölüm cəzasını ləğvetmə istiqamətində atılacaq ilk addım kimi ölüm cəzasının icrasına moratorium tətbiq etməyə çağırırıq.

Aİ və Avropa Şurası bu yaxınlarda Ukraynanın işğal olunmuş Donetsk şəhərində çıxarılan ölüm hökmlərini kəskin şəkildə pisləyir. Onlar bu hökmlərin həm Avropa insan hüquqları standartlarına, həm də beynəlxalq hüquqa, o cümlədən Cenevrə Konvensiyalarına uyğun olmadığını vurğulayır və məhkum olunmuş fərdlərin azadlığa buraxılmasını müsbət qiymətləndirir. Eyni tərzdə, biz Belarus Cinayət Məcəlləsinə edilən, nəticə etibarilə siyasi müxalifləri hədəfə almaq məqsədi daşıyan, siyasi motivli düzəlişi- ölüm cəzasının "terror aktlarına cəhd" üçün də şamil edilməsini pisləyirik və biz hakimiyyət qurumlarını bu qərarı ləğv etməyə çağırırıq. Biz həmçinin son vaxtlar edamların sayını artıran Sinqapur, İran, Səudiyyə Ərəbistanı və digər ölkələri dünya tendensiyasına qoşulmağa və bu qeyri-insani cəzanın istifadəsindən imtina etməyə çağırırıq.

Aİ və Avropa Şurası Qazaxıstanı Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bütün dünyada ölüm cəzasının ləğvini nəzərdə tutan İkinci Fakültativ Protokolunu ratifikasiya etdiyinə görə təqdir edir. Biz həmçinin Papua Yeni Qvineya, Mərkəzi Afrika Respublikası və Ekvatorial Qvineyanı bu il ölüm hökmünü ləğv etdiklərinə görə alqışlayırıq.

Qeyri-insani və ləyaqəti alçaldan rəftar ölüm cəzasına xasdır. Ölüm cəzasının icrasını gözləmə sırası insanın sağlamlığının uzunmüddətli fiziki və psixoloji tənəzzülünə səbəb olur. Edamın gözlənilməsinin ruhi iztirabları və tətbiq edilən amansız edam üsulları Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarında uzun müddətdir qeyd edildiyi kimi, AİHK-nın 3-cü maddəsinə ziddir.

Yekun olaraq, Aİ və Avropa Şurası bütün dövlətləri 2017-ci ildə yaradılmış və hazırda işgəncə və ölüm cəzasının həyata keçirilməsi üçün istifadə edilən malların ticarətini məhdudlaşdırmaq öhdəliyi götürən 62 dövləti əhatə edən İşgəncəsiz Ticarət üzrə Qlobal Alyansa qoşulmağa təşviq edir.

Ölüm cəzası insan ləyaqətinə zidd olan qeyri-insani və ləyaqəti alçaldan bir rəftardır. Bu, cinayətin qarşısının alınmasına xidmət etmir. Heç bir hüquq sistemi günahsız insanların həyatını itirməsinə səbəb ola biləcək məhkəmə səhvlərindən sığortalı deyil. Ölüm hökmü tətbiqinə son qoyulmayana qədər biz bu istiqamətdə təbliğatı dayandırmayacağıq.